# Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin ilk sədri, görkəmli siyasi xadim



***Ə**limərdan bəy Topçubaşov Azərbaycanın görkəmli siyasi xadimlərindən biri olmaqla yanaşı, bütün Rusiya müsəlmanlarının milli-azadlıq hərəkatındakı əvəzsiz xidmətləri ilə xalqın yaddaşında əbədiləşib. O, 1862-ci il may ayının 4-də Tiflisdə dünyaya gəlib. Arxiv sənədlərindən məlum olur ki, nəsil şəcərəsinin İranın Xorasan əyalətinə də bağlılığı var. Ağa Məhəmməd şah Qacar Şuşanı ala bilmədiyi zaman Tiflisə hücum edir. Geri qayıdanda Əlimərdan bəy Topçubaşovun babaları Hacıağa, Ələkbər, Ağahüseyni də özü ilə aparır. Bir müddət sonra Gəncə xanı Cavad xan şaha məktub yazaraq xahiş edir ki, onları geri qaytarsın. Ə.Topçubaşov ilk təhsilini Tiflis gimnaziyasında alır və 1884-cü ildə Peterburq Universitetinin tarix-filologiya fakültəsinə daxil olur. Lakin hüquq ixtisasına olan marağı daha üstün gəlir və birinci semestrdən sonra fakültəsini dəyişir. 1888-ci ildə ali təhsilini müvəffəqiyyətlə başa vurur. Həmin universitetdə dərs demək üçün təklif alsa da, imtina edir. Çünki bunun üçün o, xristianlığı qəbul etməli idi. Bir müddət Tiflisdə hakim köməkçisi, vəkil işləyir.*







Əlimərdan bəy Topçubaşov 1896-cı ildə Bakıya gəlir və vəkilliklə məşğul olur. Hüquq elminə dərindən bələd olan, Azərbaycan və rus dillərindən əlavə fars, fransız, ingilis və gürcü dillərini də mükəmməl bilən Topçubaşovun Hacı Zeynalabdin Tağıyevlə də dostluq münasibətləri yaradır. Bir müddət sonra o, Azərbaycan milli mətbuatının banisinin (Həsən bəy Zərdabi) qızı Pəri xanımla ailə həyatı qurur. Hüquqla yanaşı, jurnalistikaya həvəsi olan Əlimərdan bəy bu sahədə fəal çalışır. Belə ki, 1895-ci ildə milyonçu Hacı Zeynalabdin Tağıyevin "Kaspi" qəzeti redaksiyasını və mətbəəsini alması onun həyatında əsaslı dönüş yaradır. 1898-ci ildən 1917-ci ilin sonlarına kimi "Kaspi" qəzetinin redaktorlarından biri olur. Həmin illərdə müxtəlif sahələri əhatə edən yüzlərlə məqaləsi çap edilir. Mətbuata gəldiyi ilk gündən Bakının ictimai, siyasi həyatında baş verən proseslərə qoşularaq ömrünün sonuna kimi mübarizəsini davam etdirir. 1905-ci ildə Ümumrusiya Müsəlmanlarının Birinci Qurultayında geniş nitq söyləyərək hazırladığı 23 maddəlik nizamnamə və 79 maddəlik layihə üzrə Ümumrusiya Müsəlman İttifaqının yaradılmasını təklif edir. Əlimərdan bəy Topçubaşovun təşəbbüsü ilə "Müsəlman fraksiyası" yaradılır. Buraya yalnız Qafqaz müsəlmanları deyil, Rusiya ərazisində yaşayan müsəlmanlar da qəbul edilir. Ə.Topçubaşov daha sonra "İttifaqi-əl-Müslimin" adlı partiyasını təsis edir. 1907-ci ildə Bakı qəzasından Rusiya Dövlət Dumasına deputat seçilir.

Əlimərdan bəy Topçubaşovun adı Rusiya Dövlət Dumasının üzvü, Bakı Dumasının sədri, Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri və parlamentin ilk sədri, hüquqşünas, diplomat və mübariz mətbuat fədaisi kimi tarixə yazılıb.

1905-1907-ci illər inqilabının məğlubiyyətindən sonra Ə.Topçubaşov 1910-cu ildə Moskvanı tərk edərək, Bakıya dönür. O, 1914-cü ildə Bakıda 45 nəfərdən ibarət "Məşvərət məclisi" təşkil edir, müsəlmanların "Tələblər paketi"ni hazırlayaraq, çar hakimiyyəti orqanlarına göndərir. 1916-cı ildə isə Tiflisdə toplanan Qafqaz millətləri yığıncağında Azərbaycanı təmsil edir. Rusiya Dövlət Şurasının müşavirəsində (1917, 12-15 avqust, Moskva) Topçubaşov Rusiya müsəlmanlarının 8 demokratik təşkilatı adından geniş nitq söyləyir, Rusiyada "dövlət quruluşunun əsasına müsəlman xalqlarının öz müqəddəratlarını təyini şüarının qoyulduğunu" da bəyan edir.

Müsəlman Şərqində ilk demokratik respublika kimi yaranan Azərbaycan Xalq Cümhuriyyətinin dünyaya tanıdılmasında Əlimərdan bəy Topçubaşovun misilsiz xidmətləri olub. O, ikinci hökumətdə portfelsiz nazir kimi tanınır, sonra isə xarici işlər naziri təyin edilir. 1918-ci ilin dekabr ayında Milli Şuranın sədri Məhəmməd Əmin Rəsulzadənin təklifi ilə Azərbaycan parlamentinin sədri seçilir. Həmin dövrdə Ə.Topçubaşov Azərbaycan Cümhuriyyətinin fövqəladə elçisi və səlahiyyətli naziri kimi İstanbulda siyasi fəaliyyət göstərir, ABŞ, İngiltərə, Hollandiya, İsveç, İran və Ukraynanın bu şəhərdə olan səlahiyyətli nümayəndələri, eyni zamanda İranın xarici işlər naziri, Rusiyanın keçmiş xarici işlər nazirləri və digər rəsmi şəxslərlə görüşlər keçirir, diplomatik danışıqlar aparır. İstanbulda "Azərbaycan mətbuat bürosu"nu yaradır və bununlada ölkəmiz haqqında geniş məlumatların yayılmasında, dünyaya tanıdılmasında müstəsna xidmətlər göstərir.

Parlament sədri seçildikdən bir neçə gün sonra Ə.Topçubaşov Azərbaycan Xalq Cümhuriyyətinin Paris Sülh Konfransına göndərəcəyi nümayəndə heyətinin üzvü və sədri kimi İstanbuldan birbaşa Parisə yola düşür. Bir çox maneələrdən sonra 1919-cu ildə nəhayət Parisə gələn Əlimərdan bəy Topçubaşov burada Azərbaycanın de-fakto və de-yure tanınması üçün vacib görüşlər keçirir. Bu mənada Amerika Birləşmiş Ştatlarının prezidenti Vudro Vilsonla olan görüşü böyük əhəmiyyət daşıyır. Ə.Topçubaşov ABŞ prezidentinə Azərbaycanın, o cümlədən Qafqazın siyasi-iqtisadi vəziyyəti, azərbaycanlılar haqqında ətraflı məlumat və Paris Sülh Konfransına təqdim ediləcək 3 maddədən ibarət memorandum təqdim edir. O, ABŞ prezidenti ilə görüşən ilk azərbaycanlı kimi də tarixə düşür. Məhz onun gərgin əməyi və işgüzar görüşləri nəticəsində 1920-ci ilin yanvar ayında Azərbaycanın müstəqilliyi Paris Sülh Konfransı tərəfindən de-fakto tanınır və səhəri gün müvafiq sənədlər Əlimərdan bəy Topçubaşova təqdim olunur. O, bu vacib hadisəyə çox sevinir və Baş nazir Nəsib bəy Yusifbəyova yazır: "Bizim də azad və müstəqil yaşamaq ümidlərimizin möhkəmləndiyi bir dövr başlanır... Biz bu səadətə bərabər olan heç nə tanımırıq".

Əlimərdan bəy Topçubaşovun bir istəyi də Qafqaz millətlərinin vahid bir federasiyada birləşməsi idi. O hesab edirdi ki, bununla xalqlar arasındakı münasibətləri daha yaxşı qura və kənar müdaxilələrin qarşısını birlikdə daha uğurla ala bilərlər. İstanbuldan hökumətin sədri Fətəli Xan Xoyskiyə yazdığı 1918-ci il 16 dekabr tarixli məktubda Cənubi Qafqaz ölkələrinin Paris Sülh Konfransında vahid nümayəndə heyəti ilə çıxış etməsi təklif olunurdu. Topçubaşov məktubda bu məsələ ilə əlaqədar konfrans iştirakçısı olan ölkələrə xüsusi memorandumla müraciət etdiyini də bildirirdi. Bununla belə, Topçubaşov ermənilərin bu işə razı olacaqlarına şübhə ilə yanaşırdı, *"...çünki ermənilərin iştahası çox böyükdür və həm də bu iştahalarını özgələrinin, ilk növbədə isə bizim hesabımıza doydurmaq istəyirlər. Az qala, bütün paytaxtlarda bizim mənafeyimizin zərərinə təbliğat aparır, bizi dövlət həyatı qurmağa qabil olmayan və başqa millətlərlə barışmaz millət kimi qələmə verirlər".*

Müstəqilliyini əldə etmiş respublikamız 1920-ci ilin aprel ayında bolşeviklər tərəfindən işğal edildikdən sonra Milli hökumətin üzvləri mühacir həyatı yaşamağa məcbur olurlar. Azərbaycan Xalq Cümhuriyyəti süqut edəndə Parisdə olan Əlimərdan bəy Topçubaşov geri qayıtmır, ömrünün sonuna kimi orada yaşayır. Lakin Azərbaycanın azadlığı naminə mübarizəsindən bir gün belə geri çəkinmir. M.Ə.Rəsulzadənin "Avropa və Türkiyədə Azərbaycan Milli Mərkəzi" adı altında yaratdığı mühacir təşkilatına qoşulan Əlimərdan bəy Topçubaşov ölkəsinin müstəqilliyi uğrunda mübarizəsini vətəndən uzaqlarda davam etdirir. 1920-ci il noyabr ayında Azərbaycanın Millətlər Cəmiyyətinə üzvlük üçün müraciət edir. Beynəlxalq konfranslarda Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğal olunduğu, ölkəmizdə törətdikləri cinayət hadisələri haqqında geniş məlumat verir. Ə.Topçubaşov siyasi fəaliyyətini Qafqaz respublikaları nümayəndələrinin fəaliyyəti ilə də əlaqələndirir və 1921-ci il mayın 8-də Parisdə Qafqaz Konfederasiyasının yaradılması məsələsini müzakirə edir. Həmin il iyunun 10-da isə Qafqaz respublikasının üç səlahiyyətli nümayəndəsi onun sədrliyi ilə keçirilən iclasda siyasi və iqtisadi ittifaq yaratmaq haqqında razılığa gəlirlər. 1923-cü ildə isə Lozanna konfranslarında iştirak edən Ə.Topçubaşov Azərbaycanın bolşevik Rusiyası tərəfindən işğalı və bolşeviklərin Azərbaycanda törətdikləri cinayətlər haqqında geniş məzmunlu çıxışlar edir. 1934-cü ildə Gürcüstan və Şimali Qafqaz xalqları təmsilçilərinin iştirakı ilə Brüsseldə "Qafqaz Konfederasiyası Bəyannaməsi"ni imzalayır.

Əlimərdan bəy Topçubaşov 1934-cü il noyabr ayının 5-də Parisin Sen-Deni rayonunda vəfat edib və Müqəddəs Kloud qəbiristanlığında dəfn olunub.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**